# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 334 Bakı şəhəri, 11 sentyabr 2020-ci il**

***"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin hesabına köçürülən vəsaitlərdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbayan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 437 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

"Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin, Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2020-ci il 30 mart tarixli 978 nömrəli Fərmanında dəyişiklik edilməsi, "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 1 may tarixli 1358 nömrəli və "Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə xidmətin hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 11 sentyabr tarixli 830 nömrəli fərmanlarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli 1033 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin hesabına köçürülən vəsaitlərdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 437 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1899) preambulasından "və "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 1 may tarixli 1358 nömrəli Fərmanının 4.5-ci bəndinin" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***

Xalq qəzeti 2020.- 13 sentyabr.- S.5.